*21 fevral Beynəlxalq Ana Dili Günüdür*

# Milli kimliyimizin və mədəni irsimizin rəmzi

**Milli kimliyini əks etdirən dilini qoruyub yaşatmayan millət və ya etnik qrup zamanla assimilyasiyaya uğramaq təhlükəsi ilə üzləşir. Halbu ki, dil xalqın varlığının və mədəniyyətinin simvoludur.**



Beynəlxalq Ana Dili Günü hər il fevralın 21-də dünyada qeyd edilir. 1999-cu ilin noyabrında UNESCO-nun qərarı ilə təsis olunan bu gün, 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi status alması uğrunda mübarizə aparan dörd tələbənin həlak olması hadisəsinə həsr olunub. Bu gün ana dilinin dəyərini xatırladaraq, hər bir insana öz doğma dilinə sahib çıxmaq, onu qorumaq və inkişaf etdirmək hüququnu bir daha vurğulayır.

Müasir dünyada çoxmədəniyyətli və çoxdilli cəmiyyətlər, yerli dilləri qoruyaraq, ənənəvi biliklərin və mədəni irsin ötürülməsində mühüm rol oynayır. Lakin təəssüf ki, dünya əhalisinin 40 faizi doğma dilində təhsil almaq imkanından məhrumdur. Bəzi regionlarda isə bu rəqəm 90 faizə çatır. Araşdırmalar göstərir ki, təhsil sistemində ana dilindən istifadə şagirdlərin öyrənmə nəticələrini yaxşılaşdırır, tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir və biliklərin nəsillər arasında ötürülməsinə töhfə verir. Ana dilinə əsaslanan çoxdilli təhsil siyasəti isə inklüziv təhsilin inkişafında və yerli dillərin qorunmasında mühüm əhəmiyyət daşıyır. Şagirdlər üçün ana dilində başlanan təhsil, zamanla digər dillərin mənimsənilməsini də asanlaşdıraraq, məktəb və ev arasında olan dil baryerini aradan qaldırır.

Hazırda dünyada təxminən 7000 dil mövcuddur və onların 45 faizi təhlükə altındadır. Təhsil sistemlərində və dövlət idarəçiliyində yalnız bir neçə yüz dil mühüm rol oynayır. Rəqəmsal dünyada isə istifadə olunan dillərin sayı yüzdən də azdır. Halbuki, dillər ənənəvi bilikləri və mədəni irsi yaşadan əsas vasitələrdir və onların qorunması çoxdilli cəmiyyətlərin davamlı inkişafı üçün vacibdir.

Azərbaycanda ana dilinin qorunmasına və inkişafına dövlət səviyyəsində xüsusi diqqət yetirilir. Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycan dili ölkənin bütün sahələrində geniş şəkildə işlənməkdədir. Sovet dönəmində rus dili dominant olduğu halda, Ulu Öndər Heydər Əliyev Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyində ana dilində çıxış edərək, dilimizə verdiyi önəmi nümayiş etdirib. 1978-ci il Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu alması da tarixi əhəmiyyət daşıyan bir hadisə olub.

Müstəqillik dövründə isə bu ənənə daha da inkişaf etdirilib. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit olunub. 2001-ci ilin avqustun 1-dən latın qrafikalı əlifbaya tam keçid həyata keçirilib və bu tarix ölkəmizdə Ana Dili və Əlifba Günü kimi qeyd edilməyə başlanıb. 2002-ci ildə qəbul edilən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun isə dilimizin qorunması və inkişafı üçün mühüm hüquqi baza rolunu oynayıb.

Bu ənənə hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının imzaladığı bir sıra fərman və sərəncamlar ana dilimizin inkişafına verilən böyük önəmin göstəricisidir.

Azərbaycan dili milli kimliyimizin və mədəni irsimizin qoruyucusudur. Hər bir vətəndaş dilini qorumalı, zənginləşdirməli və onu gələcək nəsillərə ötürməlidir. Çünki ana dilini yaşatmaq, milli varlığımızı və mədəni kimliyimizi qorumağın ən vacib şərtlərindən biridir.